**Bu gün Azərbaycan müstəqil dövlət olaraq özünəməxsus, milli maraqlarına uyğun xarici siyasət həyata keçirir. Dövlət başçısı cənab İlham Əliyevin yeritdiyi bu siyasətdə milli maraqlar mütləq ön planda nəzərdə tutulur. Dövlətimiz hər bir sahə ilə bağlı qərar verərkən milli maraqlarla xalqın tələbi arasında bir balans qurmağa çalışır, xarici siyasəti yürüdərkən xalqın mənafeyi birmənalı olaraq öz əksini tapır. Çünki Konstitusiya əsasında xalqımızın yaşamasına, fəaliyyətinə, ictimai-siyasi və mənəvi həyatının azadlığına birmənalı olaraq təminat verilir.**

# SABİTLİYİN VƏ SÜLHÜN QORUNMASI ÜÇÜN BÖYÜK İŞLƏR GÖRƏN GÜCLÜ DÖVLƏTİN MÜDRİK LİDERİ

## Tam müstəqil, müasir və güclü Azərbaycanın daxili və xarici siyasəti bir çox ölkələr üçün nümunədir



*Xarici siyasətimiz daxili siyasətimizin davamıdır. Bu gün Azərbaycanın xarici siyasəti prinsipiallığı və müstəqilliyi ilə seçilir. Bunun əsas səbəbi, əlbəttə ki, güclü siyasi iradənin mövcudluğudur. Çünki güclü siyasi iradə olmasa heç bir ölkə müstəqil siyasət apara bilməz. Bu siyasi iradə vardır. Bu siyasi iradə özünü həm daxili, həm xarici siyasət məsələlərində göstərmişdir. Eyni zamanda, ölkəmizin uğurlu inkişafı və son illərdə iqtisadi müstəqilliyimizin tam şəkildə təmin olunması bizə imkan verir ki, xarici arenada da öz sözümüzü deyək, öz maraqlarımızı müdafiə edək.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti.***

Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər respublikamız üçün həlledici illər olub. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulub. Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilib, ölkəmiz dünya birliyinə qovuşub.

Əsasını ümummilli liderin qoyduğu və bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası regional və beynəlxalq əlaqələrə daha fəal qatılaraq, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə əxz edərək dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçib. Bu seçimi reallaşdırmaq üçün Azərbaycan dövləti bir tərəfdən dünya təcrübəsini öyrənərək özünün iqtisadi və siyasi inkişaf modelini müəyyənləşdirir, digər tərəfdən isə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərə uyğun olaraq öz milli maraqlarını qoruyub dövlətlərarası əlaqələrini genişləndirir.

Hazırda regionda və dünyada baş verən əsas iqtisadi-siyasi və mədəni proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Ölkə daxilində gedən demokratik proseslər və iqtisadi yüksəlişlə yanaşı, uğurlu xarici siyasət bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəldib və bu da beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaradıb.

Müasir dövrdə Azərbaycanın hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Belə ki, ötən 18 il ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı inkişaf etdirib, insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq sənədlərə imza atıb və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə edib.

Bu gün dövlət başçısı cənab İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın regionda və dünyada müttəfiqlərinin sayını xeyli dərəcədə artırıb. Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu zəmanəmizin yeni çağırışlarına uyğun və dinamik şəkildə davam etdirən cənab İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində Azərbaycanın dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf edib. Nəticədə, ölkəmiz yalnız regionda deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanıb. Ona görə də bu gün dünyanı narahat edən, həyati əhəmiyyətli bir sıra problemlərdə aparıcı dövlətlərin başçıları Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar.

Cənab İlham Əliyevin müdrik rəhbərliyi altında ölkəmiz istər ikitərəfli, istərsə də çoxtərəfli xarici əlaqələr qurarkən milli maraqlar xarici siyasətin əsas prioritetləri halına gəlir və dövlət başçısı bunu açıq şəkildə beynəlxalq sistemdə tərəfdaşlarına bildirir. Həmçinin xarici siyasətdə ölkəmizlə sərhəd qonşuları ilə olan münasibətlər də önəmli yer tutur. Bundan əlavə, beynəlxalq təşkilatlara, layihələrə qoşulma, regionda baş verən hadisələrə münasibət bildirmə kimi məsələlər də mütləq gündəmə gətirilir.

Azərbaycanın yerləşdiyi region hər cəhətdən - istər geosiyasi, istərsə də strateji baxımdan böyük əhəmiyyət kəsb edir. Bu baxımdan ölkəmiz həm qonşuluq siyasətində, həm də digər region ölkələrlə olan münasibətlərində balanslaşdırılmış siyasət yürüdür. Bu da Azərbaycanın yerləşdiyi regionun həssas və mürəkkəb olmasından irəli gəlir.

Ölkəmizin müstəqilliyini, suverenliyini, təhlükəsizliyini qorumaq və bunları beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirmək, mənafeyi Azərbaycanın milli, həmçinin dövlətçilik maraqları ilə uyğun gələn ölkələrlə sıx əməkdaşlıq qurmaq, müttəfiqlik etmək və bunlardan istifadə edərək beynəlxalq sistemdə mövqeyini möhkəmləndirmək, regionda baş vermiş hər hansı bir gərginliyin və ya münaqişələrin aradan qaldırılmasına səy göstərmək, xalqın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatını beynəlxalq iqtisadi sistemdə təmsil etmək, xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr qurmaq və bu kimi təşkilatlarda fəal iştirak etmək, habelə bir çox digər məsələlər hazırda ölkə başçısı cənab İlham Əliyevin uğurla həyata keçirdiyi xarici siyasət strategiyasının prioritet istiqamətlərini təşkil edir.

Həmçinin Azərbaycanın müstəqilliyinə qarşı yönələn bütün təhlükələrin aradan qaldırılmasına, milli təhlükəsizliyin təmin edilməsinə, tarixi Zəfərdən sonra Ermənistanda ara-sıra baş qaldıran separatizm və qisasçılıq siyasətinin qarşısının alınmasına və bu məqsədlə bölgədə və dünyada müttəfiqlərin sayının artırılmasına, region dövlətlərlə maraqların üst-üstə düşməsini təmin etməsinə, eləcə də qarşılıqlı əməkdaşlıq çərçivəsində fəaliyyət göstərməsinə də böyük önəm verilir.

Bütün bunlar regionumuzun həssas olmasının və digər böyük ölkələrin bölgədəki ortaq maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Məhz, bu baxımdan cənab İlham Əliyevin rəhbərliyi ilə balanslaşdırılmış siyasətin həyata keçirilməsi hazırda Azərbaycana böyük uğurlar qazandırmaqdadır.

Sirr deyil ki, regionumuzda hər hansı bir gərginliyin və ya münaqişənin yaranması ilk növbədə böyük enerji ehtiyatlarına və layihələrə malik olan Azərbaycan üçün arzuolunmaz haldır. 44 günlük müharibədə əldə etdiyimiz parlaq Qələbədən sonra Cənubi Qafqazda yaranmış yeni reallıqlar nöqteyi-nəzərdən də bu, Azərbaycan dövlətini qane edə bilməz. Çünki bu zaman təkcə ölkəmizin suverenliyi və milli təhlükəsizliyi təhdid altına düşmür, bölgəmizdə yeni inkişaf perspektivləri də təhlükə altına alınmış olur. Bu, nəinki ölkəmiz, həmçinin regionun digər qonşu dövlətləri üçün də qətiyyən arzuolunan deyil. Ancaq qeyd etmək lazımdır ki, bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində bu gün Azərbaycan dövləti mümkün olan təhlükələrin qarşısının alınması baxımından diplomatik müstəvidə böyük uğurlar əldə etmişdir.

Bundan başqa, xarici siyasət prioritetlərinə Azərbaycanın Avropa Birliyi sisteminə siyasi, iqtisadi, mədəni sahələrdə inteqrasiyası da əsas təşkil edir. Burada məqsəd xalqın rifahını təhlükəsiz təmin etmə, xarici kapital və investisiyaların, həmçinin yeni texnogiyaların ölkə iqtisadiyyatına daxil olmasıdır. Həmçinin Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya Ticarət Təşkilatı ilə səmərəli əməkdaşlıqların qurulması da əsas prioritet təşkil edir.

Dövlət başçısı cənab İlham Əliyevin xarici siyasət prioritetləri sırasında həmçinin sivil birgə yaşayış normalarının bərqərar olması, eyni zamanda regionda və dünyada sülhü, təhlükəsizliyi təmin edən BMT, ATƏT kimi digər nüfuzlu və mötəbər beynəlxalq qurumların fəaliyyətinin genişləndirilməsində yaxından iştirak etmək durur. Eyni zamanda ayrı-ayrı regionlarda yaşayan azərbaycanlıların hüquqlarının qorunması və bunların beynəlxalq hüquq normaları ilə təmin olunması daim diqqət mərkəzində saxlanılır.

Azərbaycanın xarici aləmdə apardığı siyasət dövlətimizin beynəlxalq hüquq normalarına uyğun olaraq hərəkət etmək istəyindən qaynaqlanır. Azərbaycan dünyada sabitliyin və sülhün qorunması üçün çalışan ciddi aktorlardandır. Ölkəmiz bu gün regionda və dünyada nüfuzu günü-gündən artan güclü siyasi oyunçulardan biridir. Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayır. Enerji ehtiyatları böyük olan dövlətlər kifayət qədər çoxdur. Ancaq bununla belə Azərbaycan ondan səmərəli şəkildə istifadə edir və onu digər dövlətlərə təzyiq etmək vasitəsi kimi deyil, əksinə, qarşılıqlı əməkdaşlıq vasitəsi kimi görən ölkədir.

Malik olduğu iti fəhmi və diplomatik məharəti hesabına Prezident İlham Əliyevin son 18 il ərzində ölkəmizin və eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı çoxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur. Nəzərə almaq lazımdır ki, enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir. Bu baxımdan bir sıra nüfuzlu ekspertlərin "Müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsubiyyətlə yox, enerji ehtiyatlarına malik olub-olmamaq bölgüsü ilə müəyyən ediləcək", - fikri təsadüfi sayılmamalıdır.

Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft diplomatiyasını uğurla davam etdirən cənab İlham Əliyev müxtəlif obyektiv və subyektiv çətinliklərin öhdəsindən gələrək 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum kimi nəhəng neft və qaz marşrutlarının reallaşmasına nail oldu. Dövlət başçısının qeyd etdiyi kimi, "neft kəmərlərinin, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi də tarixi hadisə idi. Təkcə ona görə yox ki, ilk dəfə olaraq Xəzər dənizinin nefti Aralıq dənizinin bazarlarına çıxarılırdı. Eyni zamanda, ona görə ki, bu kəmər yeni bir yol, yeni bir dəhliz açdı". Söhbət ilk növbədə Cənub Qaz Dəhlizindən gedir. Onun yaradılması istiqamətində ilk addım olaraq 2011-ci ildə Avropa Komissiyası ilə Azərbaycan arasında Strateji əməkdaşlıq və enerji sahəsində Anlaşma Memorandumu, növbəti ildə isə TANAP-ın çəkilişinə dair Azərbaycan və Türkiyə arasında tarixi saziş imzalandı. Bu prosesdə ən əsas həlqələrdən biri sərmayə qoyuluşu ilə bağlı idi və yüksək səviyyədə həll olundu.

2017-ci il sentyabrın 14-də beynəlxalq ictimaiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində yeni və tarixi bir səhifə yazdığına şahidlik etdi. Həmin gün Azərbaycanın unikal enerji strategiyasının memarı olan Heydər Əliyevin adını daşıyan mərkəzdə "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni sazişin imzalanması ilə bu yataqların işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Şübhəsiz, cənab İlham Əliyevin uğurla həyata keçirdiyi bu siyasət Azərbaycanın tərəfdaş və dost ölkələrinin sayının artmasına, dövlətimizin beynəlxalq nüfuzunun yüksəlməsinə və Azərbaycanla ikitərəfli, qarşılıqlı əlaqələrin yaranmasında marağı olan ölkələrin çevrəsinin genişlənməsinə səbəb oldu.

Son 18 il ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə regionda böyük nəqliyyat layihələri icra olunmaqdadır. Şərq-Qərb nəqliyyat marşrutu artıq reallaşıbdır. 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasından sonra artıq bu marşrut fəaliyyətdədir. Hazırda Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində intensiv işlər görülməkdədir. Azərbaycan ərazisində bu dəhlizlə bağlı bütün işlər yerinə yetirilmişdir. Bu iki önəmli nəqliyyat dəhlizi yeni təşəbbüslərlə çıxış etmək üçün də imkanlar yaratmışdır. Artıq ölkəmizdən keçən Şimal-Qərb nəqliyyat dəhlizi və hələ ki, istismara verilməyən, lakin potensialı olan Cənub-Qərb nəqliyyat dəhlizi çox böyük layihələrdir. Xüsusilə 2019-cu ildə Azərbaycanın qlobal nəqliyyat qovşağı kimi statusu daha da möhkəmlənmişdir. Çindən gələn ilk qatar Bakı-Tbilisi-Qars dəmir yolundan keçərək Avropaya çatmışdır. Milli iqtisadiyyata təkan verəcək, daşınma xərclərini azaldacaq dəmir yolu sistemi müasirləşdirilib və bu proses davam etməkdədir.

Prezident İlham Əliyevin uzaqgörən müdrik siyasəti sayəsində Azərbaycan son 18 il ərzində təkcə dünyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib etmir, eyni zamanda dünyada ümumbəşəri dəyərlərin qorunması və təbliği istiqamətində fantastik nailiyyətlərə imza atır. Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda konfliktlərin artması tendensiyasının müşayiət olunması, xüsusilə də islamofobiya kimi təhlükəli meyillərin bir sıra dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı da qlobal əhəmiyyət kəsb edən məsələdir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək ola bilər.

Bir daha vurğulayaq ki, Prezident cənab İlham Əliyevin bütövlükdə 18 il ərzində, o cümlədən son iki ildə həyata keçirdiyi uğurlu daxili siyasət nəticə etibarilə Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi mənafeyinə xidmət göstərmişdir. Təkcə daxili siyasətdə deyil, xarici siyasətdə də varislik prinsipi qorunub saxlanılmışdır. Başqa sözlə, Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin müəllifi olduğu çoxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik, innovativ və hücum diplomatiyası taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin nüfuzlu şəxsiyyəti statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Bu statusuna tam adekvat olaraq İlham Əliyev həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir. Hər dövlət başçısına nəsib olmayan bu unikal şəxsi keyfiyyətlərin daşıyıcısı olan Prezident İlham Əliyev harada çıxış etməsindən və mövqe bildirməsindən asılı olmayaraq, şahmat dili ilə desək, həmişə ağ fiqurlarla oynayır və artıq start vəziyyətində qarşı tərəf və ya tərəflər üzərində ilkin üstünlüyünü təmin etmiş olur.

Prezident İlham Əliyevin bütün diplomatik addımları milli maraqlardan çıxış etməklə zərgər dəqiqliyi ilə hesablanmışdır. Belə unikal və uzaqgedən siyasi məqsəd daşıyan addımlardan birini cənab İlham Əliyev 2011-ci ilin iyun ayında reallaşdırdı. Azərbaycan Qoşulmama Hərəkatına üzv oldu. Etiraf edək ki, bir çoxları cənab Prezidentin bu siyasi gedişinin arxasında əslində, nələrin dayandığını vaxtında və hərtərəfli şəkildə dərk edə bilməyiblər. Mahiyyət isə ondan ibarət idi ki, mahir, uzaqgörən diplomat və dövlət xadimi cənab İlham Əliyev Azərbaycanın dünyanın nəhəng universal beynəlxalq təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurasına üzv olmasını əsas siyasi hədəf kimi müəyyənləşdirmişdi. Bu hədəf yalnız və yalnız xarici siyasət fəaliyyətinin düzgün hesablanması sayəsində reallaşa bilərdi. Bu halda tərkibində 193 dövlətin olduğu BMT-dən sonra ikinci mövqedə qərarlaşan Qoşulmama Hərəkatına üzvlük həmin məqsədin reallaşması üçün əlavə və geniş imkanlar açdı. 2011-ci il oktyabrın 24-də BMT Təhlükəsizlik Şurasına keçirilən seçkilərdə Qoşulmama Hərəkatının üzv dövlətləri Azərbaycanın lehinə səs verdilər. Azərbaycan 155 səslə iki il müddətinə BMT TŞ-nin qeyri-daimi üzvü seçildi. Azərbaycan Respublikası müstəqilliyinin 20-ci ildönümündə tarixinin növbəti şanlı səhifəsini yazdı. Onun müəllifi böyük intellekt, iradə və qətiyyət sahibi olan dövlət başçısı cənab İlham Əliyev idi.

Prezident İlham Əliyevin müəyyən etdiyi müstəqil xarici siyasət kursu dünyada qlobal güc mərkəzləri tərəfindən də müsbət qəbul olunur. Azərbaycanın müxtəlif güc mərkəzlərindən bərabər məsafədə mövqe seçməsi, ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almaması reallığı beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə olan düzgün münasibətin formalaşmasını şərtləndirən əsas amillərdir. Bu baxımdan, 2017-ci ilin fevral ayında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Valeri Gerasimov ilə ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin rəhbəri, general Cozef Danfordun, həmin ilin sentyabr ayında general Valeri Gerasimov ilə NATO Hərbi Komitəsinin rəhbəri, general Peti Pavelin, 2018-ci ilin aprel və dekabr aylarında general Gerasimov ilə NATO-nun Avropadakı Birləşmiş Hərbi Qüvvələrinin Baş komandanı Kertis Skaparatti, 2019-cu ilin iyul ayında Rusiyanın eyni ali hərbi rəhbərliyi ilə NATO-nun Avropadakı Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Uolters arasında və nəhayət, 2019-cu ilin noyabr ayında Rusiya Müdafiə nazirinin birinci müavini, ordu generalı Valeri Gerasimov və NATO-nun Hərbi Komitəsinin sədri, Aviasiya Baş Marşalı ser Stüart Piç arasında görüşlərin Bakıda keçirilməsi təsadüfi sayılmamalıdır. Beləliklə, Bakı altı dəfə Rusiya ilə Qərb arasındakı ali hərbi danışıqlara ev sahibliyi etmiş oldu. Heç şübhəsiz, bu seçim səbəbsiz deyildir. Başlıca səbəb odur ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi müstəqil və qətiyyətli siyasət dünyanın əsas güc mərkəzləri tərəfindən ehtiramla qarşılanır.

Prezident İlham Əliyevin müəyyən etdiyi dinamik xarici siyasət kursunun tələblərinə uyğun olaraq Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının dərinləşdirilməsi istiqamətində sanballı addımlar atılmışdır. Avropa İttifaqı ilə münasibətlərin yeni mərhələyə keçidini təmin edəcək genişmiqyaslı "Strateji tərəfdaşlıq" sazişinin hazırlanması prosesində Azərbaycan öz milli maraqlarından çıxış edir.

"Hücum diplomatiyası" kimi xarakterizə olunan siyasət kursu və dövlət başçısı cənab İlham Əliyevin bütün xarici səfərləri, keçirdiyi görüşlər, mötəbər tribunalarda etdiyi çıxışlar ancaq bir amala - Azərbaycanın dövlətçiliyinə, əlbəttə onun milli maraqlarına və son 30 ilin ən ağrılı hadisəsi olan torpaqlarımızın işğalının və onun acı nəticələrinin aradan qaldırılmasına hesablanmışdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ümummilli lider Heydər Əliyevin "Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik" fikirləri rəhbər tutulmuş və ordumuz ötən il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində qələbə qazanaraq torpaqlarımızı işğaldan azad etmişdir. Məğlubiyyətini dərk edən işğalçı Ermənistan Prezident cənab İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul edərək 10 noyabr 2020-ci il tarixli kapitulyasiya sənədini imzalamışdır. Beləliklə, ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində qorunub saxlanılan dövlət müstəqilliyimiz, onun layiqli davamçısı cənab İlham Əliyevin diplomatik və sərkərdəlik məharəti sayəsində ərazi bütövlüyümüzün bərpa edilməsi ilə nəticələnmiş və Azərbaycan xalqı özünün keşməkeşli diplomatiya tarixinin daha bir şanlı səhifəsini yazmışdır.

Yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, bu gün Azərbaycanın xarici siyasət strategiyasının uğurla həyata keçirilməsi respublikamızın dünya miqyasında nüfuzunu xeyli yüksəldib, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirib. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət strategiyasının uğurla davam etdirilməsi müstəqil dövlətimizin dünya birliyində mövqelərinin daha da yüksələcəyinə olan əminliyi artırır.

**Emin QASIMOV,**
**"Respublika".**